# «Qəbələnin səsi» ədəbi birliyi yaradıldı

Qəbələ Mədəniyyət Mərkəzində «Qəbələ» qəzeti redaksiyası əməkdaşlarının bədii yazı ilə məşğul olan oxucularla görüşü keçirilmişdir.



Görüşü giriş sözü ilə qəzetin redaktoru Varis Yaqubov açmış , bu tədbirin keçirilməsinin məqsədi barədə danışmışdır. Varis Yaqubov bildirmişdir ki, «Qəbələ» qəzeti redaksiyası bədii yazılarla məşğul olan oxucularla əlaqələri daha da fəallaşdırmağı qərara almışdır. Çünki məzmunlu bədii yazılar qəzetin oxunaqlılığını artırır, yazıları rəngarəng edir. Redaktor yazarları fəal olmağa, redaksiya ilə əlaqələri daha da artırmağa çağırmışdır.

Qəzetin əməkdaşı Qüdrət Səmədov «Qəbələ» qəzeti redaksiyasının həvəskar yazarlarla əlaqəsinin vəziyyəti barədə məlumat verdi, redaksiyaya çap olunmaq üçün təqdim olunan yazıların bədii keyfiyyətindən danışdı.

Bədii yazılarla məşğul olan oxucuların işini fəallaşdırmaq, onlarla işləməyi asanlaşdırmaq məqsədilə tədbir iştirakçılarının təklifi ilə «Qəbələnin səsi» adlı ədəbi birlik, bədii yazıları qiymətləndirmək və istiqamətləndirmək məqsədilə bədii şura yaradıldı. Şuranın tərkibi seçildi. Sonra «Qəbələ» qəzeti redaksiya heyəti təsdiq olunmuşdur.

Görüşdə rayonun qəsəbə və kəndlərində həyata keçirilən mədəni-kütləvi tədbirləri, abadlıq, quruculuq işlərini operativ şəkildə qəzetin səhifələrinə çıxarmaq məqsədilə Vəndam, Bum, Nic qəsəbələrində, Hacıalılı kəndində müxbir postları yaradıldı.

Yazarlardan Nargilə Qafarova, Emin Baratoğlu, Əhməd Məmmədli, Rasim Bayramoğlu, Zahid Əfəndiyev, Qərib Hüseynov, Mehrəli Mehrəliyev və başqaları çıxış edərək tədbirin keçirilməsi ilə əlaqədar rəylərini bildirmiş, fikir mübadiləsi aparmışlar.

Görüşü «Qəbələ» qəzetinin redaktoru Varis Yaqubov yekunlaşdırdı.

***«Qəbələ».***

# Vəndam bələdiyyəsi əhali ilə işi fəallaşdırır

2016-cı ilin oktyabr ayının 31-dən noyabr ayının 5-dək «Azərbaycan yerli demokratik həftəsi» çərçivəsində Vəndam Bələdiyyəsi də bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, bələdiyyə binasının qarşısında «Bələdiyyə-vətəndaş, vətəndaş-bələdiyyə əlaqələrini möhkəmləndirək» şüarı yazılmış transparant asılmış, «Bələdiyyə poçt qutusu» quraşdırılmış, bələdiyyənin «qaynar xətt» telefon nömrəsi elan edilmiş, bələdiyyə sədri, onun müavinləri və bələdiyyə üzvləri tərəfindən vətəndaşların qəbulu məqsədilə 1—3 noyabr tarixlərində «açıq qapı» günləri keçirilmişdir.

Əhalinin yerli əhəmiyyətli məsələlərlə bağlı problemlərinin dinlənilməsi və onların həlli yollarının araşdırılması, vətəndaş-bələdiyyə, bələdiyyə-vətəndaş əlaqələrinin möhkəmləndirilməsi, vətəndaşların bələdiyyənin fəaliyyətində iştirakının təmin edilməsi, onların müraciətlərinə baxılması, irad və təkliflərinin dinlənilməsi məqsədiləbələdiyyənin rəhbərliyi və bələdiyyə üzvləri müxtəlif görüşlər təşkil etmişlər. Görüşlərdə qəsəbə ağsaqqallarının və fəallarının təklifləri nəzərə alınaraq bələdiyyənin fəaliyyət planına daxil edilmişdir.

Sakinlərin təklifilə qəsəbə mərkəzində müasir sanitariya qovşağının tikintisinə başlanılmışdır. Həmçinin qəsəbədə ictimai obyektlərin, məktəb, uşaq bağçası və həkim məntəqəsinin təmiz su ilə təmin olunması məqsədilə əlavə artezian quyusunun qazılması qərara alınmışdır.

Vəndam Bələdiyyəsi bundan sonrakı fəaliyyətində də seçicilərin rəy və təkliflərini nəzərə alacaqdır.

✍ **Qaryağdı QULUYEV.**

# Qəbələ şərabı "İnterwinery" sərgisində qızıl medala layiq görülüb

Çində həyata keçirilən və dünyada şərabçılıq sahəsində ən böyük sərgilərdən hesab olunan "İnterwine" beynəlxalq şərabçılıq sərgisində Azərbaycan məhsulları da nümayiş olunub.



Quancou Beynəlxalq Konqres və Sərgi Mərkəzində təşkil olunan və müxtəlif ölkələrdən 2000-dən çox şirkətin qatıldığı sərgidə Azərbaycan istehsalçıları yerli şərablarımızı nümayiş etdirib.

Sərgidə təşkil edilən şərab müsabiqəsinə təqdim edilmiş "Savalan" markalı Azərbaycan şərabı münsiflər tərəfindən qızıl medala layiq görülüb.

# Moris Uordun plastik kütlə düsturu

Ötən əsrin 80-ci illərinin ortalarında ingilis ixtiraçısı Moris Uord 10.000 dərəcə istiliyə və zərbəyə davamlı plastik kütlə ixtira etdi. Onun gücü Xirosimaya atılmış atom bombasının gücündən 75 dəfə çox idi. İxtiraçı onu "Starlite" adlandırdı və satmağa qərar verdi. Şübhəsiz, NASA yüngül və möhkəmliyi ilə seçilən "Starlite" ilə dərhal maraqlandı. Çünki bu, kosmik uçuşlarda və kosmik tikintilərdə inqilab idi.

İxtirasına görə heç bir mükafat almayan Moris Uord yüksək möhkəmliyə malik materialın sirrini açmadan 2011-ci ildə dünyadan köçdü. O, yalnız bunu demişdi: "Bu materialın hazırlanma formulu özündə 20 polimeri, sopolimeri və məhdud sayda keramikanı birləşdirir".

# Oxucuların nəzərinə!




## qəzetinə

**2017-ci il üçün abunə yazılışı davam edir.**

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarına əsasən Mıxlıqovaq kənd sakini **Mikayılov Müxfər Əliheydər oğluna** verilmiş JN seriyalı 0606 B nömrəli (kod 40614018) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 9 nömrəli qərarı ilə Corlu kənd sakini **Kərimova Səmayə Məhyəddin qızına** verilmiş JN seriyalı 311 nömrəli (kodu 40613028) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən Qəbələ şəhəri, Abbas Səhhət küçəsi, ev 2 ünvanında yaşayan **Əsgərova Fərqanə Səfər qızına** 17 aprel 2008-ci il tarixdə verilmiş **fərdi yaşayış evinin** (reyestr nömrəsi: 406013004300—10301, inventar nömrəsi: 406—1/1977) **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Natəvan Abdullayevaya** və **Azadə Əhmədovaya** əzizləri

**ŞAKİR DAYININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


*Redaktor Varis Yaqubov*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Növbətçi redaktor Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Tiraj 1800.
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.